**UOT 334.7**

*Xavər Əbdülməcid qızı HÜSEYNOVA*
*Azərbaycan Kooperasiya Universitetinin baş müəllimi*

# SAHİBKARLIQ BAZAR İQTİSADİYYATININ APARICI SAHƏSİ KİMİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – bazar iqtisadiyyatının aparıcı sahəsi kimi, ölkə iqtisadiyyatında mühüm yer tutan sahibkarlığın rolu və xüsusi çəkisinin getdikcə artması.

**Tədqiqatın metodologiyası** – sahibkarlığın metodologiyası ilə yanaşı, onun cəmiyyət və dövlət qarşısında yerinə yetirdiyi vəzifədir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – ölkədə sahibkarlığın və özəl sektorun inkişafı, sahibkarlığa dövlət himayəsi sahəsində həyata keçirilən tədbirlərin daha da genişləndirilməsi məqsədi ilə son illər qanunvericiliyin təkmilləşdirilməsi, infrastrukturun yaradılması, güzəştli maliyyə dəstəyinin artırılması, sahibkarlığın hüquqlarının müdafiəsi istiqamətində əhəmiyyətli işlər görülmüş və qərarlar qəbul edilmişdir.

**Tədqiqatın nəticələri** – müasir iqtisadiyyatın lokomotivi sayılan sahibkarlığın inkişafında problemlər və çatışmamazlıqlar olsa da, geniş potensial və inkişaf perspektivləri mövcuddur. Səmərəli bazar münasibətlərinin formalaşması və inkişafı, nəticə etibarı ilə əlverişli sahibkarlıq sisteminin qurulmasından birbaşa asılıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – ölkə iqtisadiyyatında sahibkarlığın inkişafının yeni mərhələsində normativ-hüquqi baza əsasında biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə prioritet istiqamətlərdə ardıcıl tədbirlərin həyata keçirilməsi zəruridir:

1) maliyyə təminatının gücləndirilməsi;
2) sahibkarlığın dövlət tənzimlənməsi;
3) sahibkarlığın infrastruktur təminatı;
4) sahibkarlığa texniki köməyin göstərilməsi və s.

***Açar sözlər: sahibkarlıq, iqtisadi inkişaf, sahibkar, istehsal, lisenziyalaşdırma.***

## *Giriş*

Obrazlı şəkildə sahibkarlığı - bazar iqtisadiyyatının lokomotivinə, sahibkarlar, iş adamlarını isə bu lokomotivi idarə edənlərə bənzətmək olar. Bu gün ölkə iqtisaliyyatında mühüm yer tutan sahibkarlığın rolu və xüsusi çəkisi getdikcə artmaqdadır.

"Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki və hüquqi şəxslərin gəlir və mənfəət əldə etməsi məqsədilə... məhsul istehsalı və satışı, həmçinin müxtəlif xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir".[1] Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq, Azərbaycan Respublikasının Konstitusiyası, Mülki Məcəllə, "Sahibkarlıq fəaliyyəti haqqında" Qanun, digər qanun və qanunverici aktlarla tənzimlənir.

Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının mühüm xüsusiyyətlərindən biridir. Ümumiyyətlə, iqtisadi inkişaf və sahibkarlıq fəaliyyəti bir-birilə üzvi şəkildə əlaqədardır. Bəşər cəmiyyətinin, o cümlədən kapitalizmin tarixi inkişafı sahibkarlıq haqqında olan təlimi tədricən formalaşdırmış, keyfiyyətcə zənginləşdirmiş, sistemli xarakter və məzmun vermişdir.

Sahibkarlıq fəaliyyətinin öyrənilməsi, onu həyata keçirən sahibkar anlayışının dərki ilə Sahibkarlıq anlayışı iqtisad elminə ilk dəfə XVII əsrin əvvəllərində ingilis iqtisadçısı Riçard Kantilyon tərəfindən gətirilmişdir. Onun təbirincə, sahibkar - risk şəraitində fəaliyyət göstərən insandır. Riçard Kantilyon torpaq və əməyi iqtisadi sərvətin mənbəyi hesab edir, maddi nemətlərin dəyərini bu amillərdə axtarırdı.

[1] "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 1

Sahibkar - iqtisadi, yaradıcı, təşkilati qabiliyyətlərə malik, rəqabət şəraitində düzgün qərar qəbul edən, ağıllı riskə getməklə iqtisadi fəaliyyəti həyata keçirən təşəbbüskar şəxsdir. XVI əsrin ortalarından səhmdar cəmiyyətləri formalaşdırmaqla fəaliyyətə başlamış sahibkarlıq fəaliyyəti XIX-XX əsrlərdə dünya iqtisadiyyatında həlledici rol oynamağa başlamışdır. Sahibkar öz kapitalı ilə fəaliyyətə başlayaraq riskə gedir. Bu zaman onun əldə etdiyi mənfəət mülkiyyətçinin riskə görə əldə etdiyi kompensasiyasıdır. O, istehsalı özü təşkü edir və planlaşdırır, istehsal fəaliyyətini həyata keçirir, onun nəticələrinə sərəncam verir. Bazar münasibətlərinin inkişafı sahibkarlıq üçün əlverişli sosial- iqtisadi şərait yaradır. İqtisadi fəaliyyət növü kimi, sahibkarlığın formalaşmasını zəruri edən şərtlərə iqtisadi, sosial, hüquqi və digər amillər daxildir.

İqtisadi şərtlərə əmtəə təklifi və tələb, əmtəələrin növləri, pul vəsaitinin həcmi, işçi qüvvəsinə və iş yerlərinə tələbat, əməkhaqqı və s. şərtlər daxildir.

Sosial şərtlərə alıcının əmtəə əldə edərkən ona təsir edən zövq və moda kimi amillər aiddir. Müxtəlif mərhələlərdə bu tələbatlar dəyişə bilər.

Sahibkarlıq fəaliyyəti müvafiq hüquqi mühitin formalaşmasını tələb edir. Odur ki, sahibkarlıq fəaliyyəti üçün zəruri şərait yaradılmalıdır. Bu, ilk növbədə, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılmasını, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı bütün zəruri qanunların qəbul edilməsini nəzərdə tutur.

Sahibkarlıq fəaliyyətinin müxtəlif növləri mövcuddur. Bu növlərin bir-biri ilə qarışdırılmaması üçün onları müxtəlif əlamətlər üzrə təsnifləşdirirlər:

- fəaliyyət növünə görə;
- mülkiyyət formasına və mülkiyyətçilərin sayına görə;
- təşkilati-hüquqi və təşkilati-iqtisadi formasına görə;
- muzdlu əməkdən istifadəyə görə və s.

Təsərrüfat subyektlərinin müstəqilliyi, iqtisadi mənafe, təsərrüfat riski və məsuliyyət sahibkarlığı şərtləndirən amillər sayılır.

Bu amillərin hər biri sahibkarlıq prosesi zamanı qarşılıqlı əlaqədə və eyni vaxtda fəaliyyət göstərirlər. Hər bir iqtisadi kateqoriyanın mahiyyəti, onun cəmiyyətdə yerinə yetirdiyi funksiyalarla müəyyən edilir. Sahibkarlıq fəaliyyəti - sahibkarlığın prinsiplərini, onun subyektlərinin hüquqlarını, vəzifələrini, dövlət tərəfindən müdafiə təminatını, dövlət orqanları ilə hüquqi münasibətlərini müəyyənləşdirir. Mülkiyyət və hüquqi formasından asılı olmayaraq, iqtisadi fəaliyyətin, o cümlədən sahibkarlığın bütün növləri bərabər hüquqlara malikdirlər.

**Sahibkarlığın dövlət qarşısında olan vəzifələri**

Sahibkarların hüquqları ilə yanaşı, onun cəmiyyət və dövlət qarşısında aşağıdakı vəzifələri vardır:

- qüvvədə olan qanunvericilikdən və bağladığı müqavilələrdən irəli gələn bütün vəzifələri yerinə yetirmək;
- işçinin əməkhaqqını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş minimum məbləğdən az olmayaraq ödəmək;
- qanunvericilikdə müəyyən edilmiş vergi, sosial sığorta yə digər icbari ayırmaları ödəmək;
- qüvvədə olan normativ aktlar əsasında ekoloji təhlükəsiziik. əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsal gigiyenası və sanitariyası sahəsində tədbirlər gömək;
- işçilərə qüvvədə olan qanunvericiliyə və müqavilələrə uyğun əmək şəraiti yaratmaq;
- antiinhisar qanunvericiliyinə riayət etmək, haqsız rəqabət metodlarından istifadə etməmək;
- öz fəaliyyəti haqqında dövlət ststistika və maliyyə orqanlarına müəyyən edilmiş formada hesabatlar vermək və s.

Sahibkarlıq fəaliyyətinin 3 əsas növü seçilir:

1) xidmət – daha asanlıqla yaradılır və az vəsait tələb edir;

2) ticarət – nisbətən çox vəsait tələb edir, mühasibat uçotu mürəkkəbdir (xidmət sahəsində mühasibat daha elastikdir). Ticarət prosesi, əsasən topdansatış və pərakəndə satış formalarında ola bilər.

3) istehsal – bu sahə daha risklidir və daha artıq vəsait tələb edir. Lakin sabit bazarın tapılması çətinliklər törədir. Hansısa bir məhsulun istehsalından digərinə keçilməsi prosesi çox mürəkkəbdir və yüksək ixtisaslı işçilərin olmasını tələb edir.

Sahibkarlıq fəaliyyətinə yeni başlayan fiziki və ya hüquqi şəxs fəaliyyətin hansı növünün seçilməsini özü müəyyən etməlidir. Bunun üçün hər şeydən əvvəl, onlar müəyyən bilik, təcrübə, bacarıq, qabiliyyət, təşəbbüs, səriştə, böyük istək, entuziazm və mülkiyyət resurslarına malik olmalıdır. Lakin fəaliyyət istiqamətlərinin təyin edilməsi zamanı aşağıdakı situasiyalardan biri yarana bilər:

1) ideyaların həddən artıq çox olması və onların arasından daha yaxşısının seçilməsinin çətin olması (əslində real bazanı və öz imkanlarını düzgün qiymətləndirən sahibkar real ideyanı seçə biləcəkdir);

2) ideyaların tamamilə olmaması (özgə ideyanın oğurlanması və beləliklə, uğursuzluğa düçar olmaq);

3) ideya o qədər də cəlbedici olmasa da, sahibkar bu sahəni yaxşı bildiyi üçün özünü rəqabətə davamlı hesab edir, hansısa amillərlə müştəriləri öz biznesinə cəlb etməyinə əmindir.

İqtisadi inkişaf və sahibkarlıq fəaliyyəti bir-birilə üzvi şəkildə bağlıdır. Ona görə də hər bir sahibkarlıq fəaliyyəti milli iqtisadiyyatın formalaşması və inkişafına xidmət etməlidir. Məhz bu baxımdan o, fərdi aspektlərlə yanaşı, ictimai-sosial əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, sahibkarlıq heç də həmişə, onun keyfiyyət əlamətləri ilə üst-üstə düşmür və təşəbbüskar xarakter daşımır. Başqa fəaliyyət növlərində olduğu kimi burada da bəzən ətalət və passivlik halları az deyildir. Bunun isə obyektiv və subyektiv səbəbləri vardır. Çünki bu amillər istər-istəməz, müəyyən konkret şərait daxilində sahibkarın iqtisadi davranışına təsir göstərməyə bilməz.[2]

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı bu gün ölkənin iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən birini təşkil edir. Belə ki, hazırda sahibkarlığa dövlət himayəsinin artırılması, iş adamlarının hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, bu prosesdə baş verən süni maneələrin aradan qaldırılması Azərbaycan Respublikası Prezidentinin daimi diqqət mərkəzindədir [3, s. 264].

**Ölkədə sahibkarlığın və özəl sektorun inkişafı**

Ölkədə sahibkarlığın və özəl sektorun inkişafı, sahibkarlığa dövlət himayəsi sahəsində həyata keçirilən tədbirlərin daha da genişləndirilməsi məqsədilə son illər qanunvericiliyin təkmilləşdirilməsi, infrastrukturun yaradılması, güzəştli maliyyə dəstəyinin artırılması, sahibkarların hüquqlarının müdafiəsi istiqamətində əhəmiyyətli işlər görülmüş, xüsusi dövlət proqramları və qərarlar qəbul edilmişdir. Ölkə rəhbərliyinin 2002-ci ilin aprel və may aylarında yerli və xarici iş adamları ilə keçirdikləri görüşlər xüsusilə əhəmiyyətli olmuş, ölkədə özəl sektorun inkişafına güclü təkan verən mühüm amil, vacib şərt olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)” bu istiqamətdə həyata keçirilməli olan dövlət tədbirlər sisteminin təmin edilməsində mühüm rol oynayaraq, ölkədə işgüzar mühitin inkişafına yeni təkan vermişdir. Qəbul edilmiş sənədlər artıq təşəkkül tapmış bu sektorda ölkənin iqtisadi potensialının səmərəli reallaşması baxımından struktur dəyişikliklərinin həyata keçirilməsinə, bu bölmənin inkişafının çeşidli mexanizmlərinin yaradılmasına istiqamətlənmişdir. Fərmanda sahibkarlığın regional inkişafının sürətləndirilməsi üzrə müəyyənləşdirilmiş tədbirlər çərçivəsində, ölkə regionlarının investisiya xəritəsi hazırlanmışdır. Xəritədə regionların potensialından daha səmərəli istifadəsi baxımından, hər bir rayon üzrə investisiya tələb olunan sahələr müəyyənləşdirilib. Bununla yanaşı, regionlara investisiyaların cəlb edilməsininin stimullaşdırılması və diferensial vergilərin tətbiqi məqsədilə, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)” və “Azərbaycan Respublikasının Vergi Məcəlləsi”ni xüsusi qeyd etmək lazımdır.

[2] T.Ə.Quliyev “Menecmentin (idarəetmənin) əsasları”, Bakı, 2001, səh. 464.

Ölkəmizdə sahibkarlıq infrastrukturunun formalaşdırılması və inkişafı sahəsində ciddi irəliləyişlər baş vermişdir. Yerli bazar infrastrukturlarının (məsləhət, tədris, informasiya, reklam və s.) formalaşdırılması məqsədilə respublikanın şəhər və rayonlarında sahibkarlığın biznes mərkəzlərinin yaradılması üzrə müəyyən tədbirlər həyata keçirilmişdir. Sahibkarlığın inkişafı sahəsində beynəlxalq təşkilatlar ilə geniş əməkdaşlıq əlaqələri qurulmuşdur. BMT-nin İnkişaf Proqramı, Dünya Bankı, BMT-nin Avropa İqtisadi Komissiyası, TACIS, OECD, GTZ kimi təşkilatlarla geniş əməkdaşlıq həyata keçirilir. Türkiyə, Almaniya Federativ Respublikası ilə yanaşı, Yaponiya, İsrail, Çin ilə də sahibkarlıq sahəsində ikitərəfli əlaqələr formalaşmışdır.

Özəl sektor ilə hökumət arasında əlaqələrin çevikliyini artırmaq üçün Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlar Şurası, həmçinin "Azərbaycanda investisiyaların Təşviqi və Məsləhət" Fondu yaradılıb. Sahibkarlıq subyektlərinin yaradılması zamanı mövcud prosesin sadələşdirilməsi və subyektiv amillərin minimuma endirilməsi mərhələsində "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununu xüsusi qeyd etmək lazımdır.

Lisenziyalaşdırma sistemində həyata keçirilmiş islahatlar nəticəsində bu sistem köklü surətdə təkmilləşdirilmiş, lisenziya (xüsusi icazə) tələb olunan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirilmiş, onların verilmə mexanizmi xeyli sadələşdirilmiş, lisenziyanın müddəti isə 2 ildən 5 ilə qədər uzadılmışdır. Məhz bu sistemin yeni formada tətbiqi ilə lisenziyalaşdırma sistemində şəffaf mexanizmin yaradılması təmin edilmiş, azad rəqabətin inkişafına, istehsal olunan məhsulun və göstərilən xidmətin keyfiyyətinin yüksəlməsinə əsaslı təkan verilmişdir.

Kiçik və orta sahibkarlığın inkişafına dövlət köməyinin formalaşması, ölkənin sosial-iqtisadi inkişafı strategiyasının həyata keçirilməsinin əsas istiqamətlərindəndir. Bu mənada Azerbaycan Respublikası Prezidentinin 17 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" sahibkarlığın inkişafında yeni mərhələ kimi qiymətləndirilməlidir. Əgər bu qəbildən olan əvvəlki Dövlət Proqramı ölkədə KOS sektorunun təşəkkülü ilə əlaqədar tədbirləri əhatə edirdisə, indiki proqram artıq təşəkkül tapmış bu bölmədə ölkə iqtisadiyyatının potensialının daha səmərəli şəkildə reallaşdırılması baxımından struktur dəyişikliklərinin həyata keçirilməsinə, ölkə iqtisadiyyatında özəl bölmənin rolunun artırılmasına və onun inkişafının çeşidli mexanizmlərinin yaradılmasına, investisiya fəallığının yüksəldilməsinə, KOS-a dövlət köməynun səmərəli formalarının bərqərar olmasına istiqamətlənmişdir. Bu proqramın kompleks xarakter daşıması, burada göstərilən müddəaların konkretliliyi, reallığı və ünvanlılığı belə bir qəti inam yaradır ki, göstərilən vəzifələrin yerinə yetirilməsi nəticəsində, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, bu fəaliyyətə müdaxilələrin aradan qaldırılması, sahibkarlıq fəaliyyətinin struktur, regional və texnoloji baxımından təkmilləşdirilməsi kimi vacib məsələlər artıq reallaşma mərhələsindədir.[4,s.5].

**Sahibkarlıq qurumlarına dövlət tərəfindən maliyyə dəstəyinin artırılması**

Sahibkarlıq qurumlarına dövlət tərəfindən maliyyə dəstəyinin artırılması barədə müddəaların da dövlət başçısının Fərmanında öz əksini tapması xüsusi əhəmiyyət kəsb edir. 2013-2015-ci illərdə dövlət büdcəsi layihələrində sahibkarlığın inkişafına 250 milyard manat vəsait ayrılması haqqında tapşırıq, deyilən fikrə əyani sübutdur. Qeyd edək ki, artıq keçən il və bu ilin I yarısında yuxarıdakı vəsaitin xeyli hissəsi dövlət büdcəsində ayrıca xərc maddəsi kimi nəzərdə tutulmuş, vəsait ayrılmış və iş adamlarına çatdırılmışdır (müqayisə üçün 1999-2001-ci illərdə həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsaitin ümumi həcmi 37,3 milyard manat olmuş, sahibkarlara isə 5,4 milyard manat həcmində güzəştli kredit verilmişdir). Son dövrlərdə sahibkarlığın inkişafı sahəsində həyata keçirilən dövlət köməyi tədbirlərinin təkmilləşdirilməsi nəticəsində ÜDM-də özəl bölmənin payı 79%-ə çatmışdır. Vergi ödəyicilərinin sayı 200 mini keçmişdir (1997-ci ildə bu rəqəm 33453 idi). Büdcə mədaxilinin 49,6% -ni özəl bölmə verir (1997-ci ildə bu rəqəm 23% təşkil edirdi).

Ümumiyyətlə, ölkə iqtisadiyyatında sahibkarlığın inkişafının yeni mərhələsində formalaşmış normativ-hüquqi baza əsasında biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə aşağıdakı prioritet istiqamətlərdə ardıcıl tədbirlərin həyata keçirilməsi zəruridir:

1) maliyyə təminatının gücləndirilməsi;
2) sahibkarlığın dövlət tənzimlənməsi;
3) sahibkarlığın infrastruktur təminatı;
4) sahibkarların hüquqlarının müdafiəsi və dövlət-sahibkar münasibətlərinin inkişafı;
5) sahibkarlığın regional inkişafının sürətləndirilməsi;
6) sahibkarlara texniki köməyin göstərilməsi.

Qeyd edək ki, yuxarıdakı istiqamətlər üzrə müəyyən istiqamətli tədbirlər həyata keçirilsə də, iqtisadiyyatın və ümumi cəmiyyət həyatının bu vacib sahəsində çoxsaylı problemlər hələ də qalmaqdadır. Onlar hansılardır?

- sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayının potensial imkanlardan xeyli aşağı olması;
- hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı subyektiv amillərin üstünlük təşkil etməsi;
- sahibkarlığın regional inkişafının hazırkı səviyyəsinin ölkə ərazisinin mövcud potensialına uyğun gəlməməsi, sahibkarlıq qurumlarının çox böyük əksəriyyətinin Bakı şəhəri və onun ətrafında yerləşməsi;
- sahibkarlığın mühüm bölmələrinin, xüsusən də KOS bölməsinin ölkənin ixrac potensialının artırılmasına və strukturunun təkmilləşdirilməsinə təsirinin məhdud olması. Eyni zamanda, KOS subyektləri ilə iri müəssisələrin kooperasiyası və inteqrasiyasının zəruri səviyyəyə çatmaması;
- sahibkarlığın inkişafına xidmət edən infrastruktur sahələrinin, xüsusən də respublikanın rayonlarında bu tipli qurumların zəif inkişaf etməsi;
- yerli sahibkarların, xüsusən də istehsalla məşğul olan iş adamlarının inhisarçı subyektlər tərəfindən sıxışdırılması ucbatından daxili bazarda onların mənafelərinin tez-tez pozulması və haqqsız rəqabətlə üzləşməsi hallarının mövcud olması;
- iqtisadiyyatın ən vacib sahələrindən biri olan aqrar bölmədə sahibkarlığın inkişaf tempinin yetərincə olmaması, həmçinin bu vacib sahənin inkişafınıləngidən aqrotexniki, aqrokimyəvi, meliorasiya və irriqasiya, bitki mühafizəsi, baytarlıq xidməti və s. kimi aqrar xidmət sahələrinin zəif inkişaf etməsi;
- maliyyə sistemində, bankların ənənəvi xidmətlərlə yanaşı, lizinq, faktorinq, forfeytinq, dilinq və s. bu kimi yeni xidmətlər göstərməsi sahəsində fəaliyyətlərinin zəif olması;
- yerli və xarici investorların fəaliyyət şəraitinin eyni olmaması, onların sığorta təminatının çox zəif olması.

Mövcud problemlərdən biri də vergi qanunvericiliyinə tez-tez edilən əlavə və dəyişikliklərdir. Lakin gələcək inkişaf perspektivlərinin daha böyük olduğunu qeyd etmək lazımdır. Bəs bu və ya digər problemlərin həllini sürətləndirmək üçün hansı işlər görülməlidir? Bunun üçün:

1) dövlət real iş görən sahibkarlara uzunmüddətli (3-5 illik) biznes planların hazırlanmasına imkan vermir. Məsələn, 01.01.2014-cü ildən tətbiq edilən əlavə və dəyişikliklərin bəzi maddələri investisiya fəaliyyətinin təşviqinə yönəlməyib (Vergi Məcəllisinin 3.10-cu maddəsində deyilir ki, vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir). Vergi qanunvericiliyinə arxalanması, sahibkarlığa təşəbbüs və meylin, eləcə də bu istiqamətdə inadkarlığın dövlət tərəfindən müdafiə və təbliğ edilməsi;
2) təkmil rəqabət mühitinin formalaşdırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə dövlət tərəfindən tənzimləmə tədbirlərinin və idarəetmə sistemində təkmilləşdirmə siyasətinin həyata keçirilməsi;
3) sahibkarlığın inkişafının struktur dəyişiklikləri, inflyasiya və iqtisadi effekt meyarları baxımından, tədricən istehsal sahələrinin axını istiqamətinə yönəldilməsi;
4) investisiya, maliyyə-kredit və vergi siyasətində sahibkarlıq fəaliyyətinin inkişafını təmin edən proseslərin sabit deyil, daim dəyişən xarakterə malik olmasının həyata keçirilməsi;
5) daha sağlam və tam şəffaf mühitin yaradılması;
6) istehsalyönümlü (məhsul və xidmət istehsalı, elmi-texniki fəaliyyət və s. sahələrdə) sahibkarlığa əlverişli şəraitin yaradılması;

7) sahibkarlıq fəaliyyətini, xüsusilə kiçik və orta sahibkarlığı maliyyələşdirməyin ən əlverişli üsullarından birinin - lizinqin inkişaf etdirilməsi;

8) kiçik biznes və bank sistemi, kredit mexanizmləri. KOS-un maliyyələşdirilməsi ilə məşğul olan dövlət qeyri - bank qurumlarının inkişaf etdirilməsi;

9) yerli və bələdiyyə büdcələri, daxili imkanlar və dövlət vəsaiti hesabına regionlarda KOS subyektlərinin intensiv surətdə artırılması;

10) aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün ayrıca investisiya siyasətinin həyata keçirilməsi;

11) sahibkarlıq fəaliyyətinə yeni başlamış subyeklərin güzəştli və sərfəli bank kreditlərindən istifadə etməsinə şərait yaradılması;

12) tezliklə ölkə əhalisinin xalq istehlakı məhsullarına (yüngül və yeyinti malları) tam tələbatının daxili istehsal hesabına ödənilməsinin sürətləndirilməsi;

13) kommunal xidmətlərə tariflərin tarazlaşdırılması, özəl sektorun inkişafını təmin etmək məqsədilə;

14) xarici investisiyaların hesabına yaradılan sahibkarlıq qurumlarının işçilərinin maksimum sayda yerli vətəndaşlardan təşkil olunması və s.

Göründüyü kimi, müasir iqtisadiyyatın lokomotivi sayılan sahibkarlığın inkişafında problemlər və çatışmamazlıqlar olsa da, geniş potensial və inkişaf perspektivləri mövcuddur. Səmərəli bazar münasibətlərinin formalaşması və inkişafi, nəticə etibarilə əlverişli sahibkarlıq sisteminin qurulmasından birbaşa asılıdır.

### *Nəticə*

Ölkənin regionlarında sahibkarlığı inkişaf etdirmək məqsədilə yüksək iqtisadi nəticələr verə biləcək sahələrin strukturunu təkmilləşdirmək yolu ilə istehsalçılarda həmin istehsal sahələrinə maraq yarada bilən tədbirlər həyata keçirməli, bu yönümlü qısa və uzun müddəti əhatə edən məqsədli proqramlar və yaxud layihələr hazırlanmalıdır. Sahibkarlığa təkan məqsədilə kreditvermə mexanizmində kənd təsərrüfatının spesifik xüsusiyyətlərinə uyğun gəlməyən cəhətlər çoxdur və hesab edirik ki, bölgələr üzrə kreditləşmə mexznizmi sadələşdirilməli, kreditin qaytarılma müddəti və faiz dərəcəsi yenidən baxılmalıdır.

Sahibkarlığın inkişafı və qarşıya qoyulan vəzifələrin həlli, qeyri-dövlət bölməsinin artırılması üçün regional xüsusiyyətlərin nəzərə alınmasını vacib hesab etmək olar.

Göründüyü kimi, müasir iqtisadiyyatın lokomotivi sayılan sahibkarlığın inkişafında problemlər və çatışmamazlıqlar olsa da geniş potensial və inkişaf perspektivləri mövcuddur. Səmərəli bazar münasibətlərinin formalaşması və inkişafı, nəticə etibarı ilə əlverişli sahibkarlıq sisteminin qurulmasından birbaşa asılıdır.

## ƏDƏBİYYAT


1. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi.
3. T.Ə.Quliyev. Menecmentin (idarəetmənin) əsasları. Bakı, 2001, s. 264.
4. "Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər" (Beynəlxalq elmi-praktiki konfransın materialları). Bakı, 2003.
5. "Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri» (Elmi-praktik konfransın materialları). Bakı, 2003.
6. UNDP Azerbaijan - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Milli Sosial Müdafiə Sisteminin İnkişafı Layihəsi". Bakı, 2003.

*Хавар Абдулмаджид кызы Гусейнова*
*старший преподователь кафедры*
*“Менеджмент и торговля”*

## Предпринимательство как ведущая сфера рыночной экономики

***Резюме***

**Цель исследования** - повышение роли и доли предпринимательства в экономике страны как ведущего сектора рыночной экономики.

**Методология исследования** - наряду с методологией предпринимательства, это задача, которую он выполняет перед обществом и государством.

**Значение исследования** - В целях развития предпринимательства и частного сектора в стране, для дальнейшего расширения мер, принимаемых в сфере государственной защиты предпринимательства, в последние годы была проделана значительная работа по совершенствованию законодательства, созданию инфраструктуры, увеличению льготных условий. Финансовая поддержка, защита предпринимательства.

**Выводы исследования** - Несмотря на наличие проблем и недостатков в развитии предпринимательства, которое является локомотивом современной экономики, существуют широкие возможности и перспективы для развития.

**Оригинальность и научная новизна исследования** - На новом этапе развития предпринимательства в экономике страны необходимо принимать последовательные меры по приоритетным направлениям с целью дальнейшего улучшения бизнес - среды на основе нормативно - правовой базы.

1) Укрепление финансовой безопасности.
2) Государственное регулирование предпринимательства.
3) Инфраструктурное обеспечение предпринимательства.
4) Оказание технической помощи предпринимательству и др.

***Ключевые слова: предпринимательство, экономическое развитие, предпринимательство, производство, лицензирование.***

*Khavar Abdulmajid Huseynova*
*Senior lectorer, “Managment and trade” department*

## Entrepreneurship as a leading area of market economy

***Summary***

**The purpose of the study -** is to increase the role and share of entrepreneurship in the country's economy as a leading sector of the market economy.

**Research methodology** - along with the methodology of entrepreneurship, it is the task it performs before the society and the state.

**Importance of the research** - in order to develop entrepreneurship and the private sector in the country, to further expand measures in the field of state protection of entrepreneurship, significant work has been done in recent years to improve legislation, create infrastructure, increase preferential financial support, protect entrepreneurship.

**Findings of the study** - although there are problems and shortcomings in the development of entrepreneurship, which is the locomotive of the modern economy, there are broad potentials and prospects for development.

**Originality and scientific novelty of the research** - at the new stage of development of entrepreneurship in the country's economy, it is necessary to take consistent measures in priority areas in order to further improve the business environment on the basis of the regulatory framework.

1) Strengthening financial security.
2) State regulation of entrepreneurship.
3) Infrastructure provision of entrepreneurship.
4) Provision of technical assistance to entrepreneurship, etc.

***Key words: entrepreneurship, economic development, entrepreneurship, production, licensing.***